Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Başı Qarlı, Uca Dağlar

11 dekabr – Beynəlxalq dağlar günü münasibəti ilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

**Bakı-2023**

**Tərtibçi:** **Nuray Əlizadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət İşçisi*

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Başı Qarlı, Uca Dağlar**- 11 dekabr Beynəlxalq dağlar günü münasibəti ilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / tərt.ed.: N.Əlizadə; ix.red. və burax.məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası. -Bakı, 2023.-42s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 202**

# Giriş

Dağlar Günü beynəlxalq səviyyədə dağlarla əlaqədar problemlərin həllinə diqqət artırmaq məqsədi ilə keçirilən tədbirdir.

BMT-nin Baş Assambleyasının təşəbbüsünə əsasən 2003-cü ildən başlayaraq dünyada 11 dekabr Beynəlxalq "Dağlar Günü" kimi qeyd olunur. Dünyada hər il bu günün keçirilməsinin məqsədi başlıca olaraq dağ sistemlərinin qlobal miqyaslı əhəmiyyətinin cəmiyyət qarşısında bir daha qaldırılmasıdır.

"Dağlar Günü" hər il bir başlıq altında qeyd olunur. 2007-2008-ci illərdə keçirilən dağlar günü dağlarda iqlim dəyişikliyinə və ərzaq təhlükəsizliyinə həsr olunmuşdur. Dağlar Yer kürəsinin səthində tektonik salların toqquşması nəticəsində yaranır. Hansı salların toqquşmasından asılı olaraq quru yuxarı qalxır və dağları əmələ gətirir və ya ərimiş lava üzə çıxaraq vulkanların yaranmasına səbəb olur. Vulkanlar dağlara nisbətən daha düzgün formada olurlar. Dağlarda, əsasən yoxsul, qayalıqlar, torpaqlar olur və yalnız zirvələrinə doğru az miqdarda bitki bitir. Bütün dağlar eyni zamanda yaranmayıb, bəziləri milyonlarla il əvvəl, başqaları bir xeyli sonra.

Qoca dağlar vaxt keçdikcə küləyin, yağışın və zirvələrini örtmüş buzların təsiri nəticəsində dağılır. Dağlardan axan sular özləri ilə torpağı, daşı yuyub apararaq vadilər və dərələr yaradıblar. Bütün bu proseslər milyonlarla il çəkib. Sonralar yaranmış dağ silsilələri hələ dağılma təsirinə məruz qalmayan cavan dağlardan ibarətdir. Bu dağılma prosesinə eroziya deyilir.

Dağın zirvələri dik və parçalanmış olarsa, belə zirvələrə pik, hamar olarsa massiv deyilir.

Hündürlüyünə görə dağlar 3 qrupa bölünür:

Alçaq dağlar - dəniz səviyyəsindən 1000m-ə qədər

Orta dağlar - dəniz səviyyəsindən 1000-2000m-dək

Yüksək dağlar - dəniz səviyyəsindən 2000m-dən yüksək

Dağın ən yüksək hissəsi onun zirvəsidir. Tektonik dağlarda zirvələr sıralanaraq silsilə əmələ gətirir. Dağın düzənə qovuşduğu yer onun ətəyi adlanır. Dağın yamacı onun zirvəsi ilə ətəyini birləşdirir. Dağlarda, xüsusilə 3000 metrdən hündür yerlərdə, səhralarda olduğu kimi, həyat şəraiti çox sərtdir. Nə qədər hündürdürsə, o qədər hava soyuqdur, külək daha güclü və rütubət daha azdır. Daha hündür yerlərdə havada oksigen seyrəkdir, torpaq isə az məhsuldardır.

## Dağlar haqqında maraqlı faktlar



1. Təpədən zirvəyə hündürlüyü 500 metrdən az olmayan geoloji əmələgəlmələr "Dağ" hesab edilir.

2. Dağlar yer kürəsinin relyefinin təxminən 40%-ni - Asiyanın 54%, Şimali Amerikanın 36%, Avropanın 25%, Cənubi Amerikanın 22%, Avstraliyanın 17%, Afrikanın isə 3% ərazisini təşkil edir.

3.Yer üzündəki ən yüksək zirvə 8848 metr hündürlüyə sahib olan Comolunqmadır (Everest zirvəsi). Dəniz səviyyəsi nəzərə alınmazsa ən hündür dağ Mauna-Keadır. ABŞ-ın Havay əyalətində yerləşən Mauna-Kea sualtı vulkanıdır. Mauna Keanın hündürlüyü 10203 metrdir, ancaq bu vulkan dəniz altından yalnız 4205 metr yüksəlir.

4. Ən uzun sıra dağları And dağlarıdır.

5.Yer kürəsindən kənarda götürsək, ən hündür dağlar yer üzərində deyil, Mars planetindədir. Marsda yerləşən Olimpos (Olympus) dağının ümumi hündürlüyü 26 kilometrdir. Bununla birlikdə günəş sistemindəki ən yüksək dağ Vesta asteroidində yerləşən Reyasilvia zirvəsidir. Hündürlüyü 22 kilometrdir.

6. Yer üzündə, dəniz səviyyəsindən hesablanan hündürlüyü 7200 metrdən çox olan yüzdən çox dağ var.

7. Planetimizin ən yüksək dağlarını bir-birinin üstünə qoyarsaq hündürlük 754,5 kilometrə çatar.

8. Butanda yerləşən Qanqhar Puensum dağı hələ heç bir alpinist tərəfindən fəth edilməyib.

9. Ən çox alpinistlər tərəfindən dırmaşılan dağ ABŞ-dakı 965 metr yüksəklikdəki Monadnok zirvəsidir.

10. Yer üzündəki ən böyük vulkanik dağ olan Mauna Loanın həcmi 75 min kvadrat metrdən çoxdur.

11. Bəzən dağların yüksək zirvəsində qırmızı qara rast

gəlmək mümkündür. Bu qırmızı qar qarpız aroması verdiyinə görə “Qarpız qarı” adlanır.

12. Dünyanın ən təhlükəli dağı - Himalayada yerləşən Annapurnanın səkkiz minlik zirvəsidir. Statistikaya görə, onu fəth etməyə çalışan hər dördüncü alpinist ölür.

13. Dünyanın ən yüksək dağlıq ölkələri — Boliviya və Nepal. Orada bəzi şəhərlərdə təzyiq o qədər aşağıdır ki, adət etməmiş turistlərin daim başı ağrıyır.

14. Ümumilikdə dünyada hündürlüyü 8 kilometrdən çox olan 14, hündürlüyü 7,2 kilometrdən çox olan yüzdən çox dağ var.

15. Bir çox məskunlaşmış adalar. İnsanların yaşadığı zirvələr, dəniz dağları və ya sönmüş vulkanlardır.

16. Yer kürəsinin bir-birinin ardınca ucaldılmış yüz ən hündür dağı, demək olar ki, 755 kilometr hündürlüyündə zirvəyə çevriləcəkdi.

17. Yalnız qırxdan bir qədər çox alpinist dünyanın 14 ən yüksək zirvəsini fəth etdi.

18. Bir vaxtlar böyük Everest qədim Tetis okeanının dibində idi. Üzərində çoxlu dəniz fosilləri tapılıb.
19. Dağlarda bəzən qəribə formalı heyrətamiz, buludları müşahidə etmək olar. Bunun səbəbi bir çox hava cərəyanlarının üst-üstə düşməsidir.

20. Çili dağı Ojos del Salado (6880) — Çilinin ən yüksək dağıdır və dünyanın ən yüksək vulkanıdır.

## Azərbaycanda yerləşən dağlar

Azərbaycan bir hissəsi meşə örtüyü və yaşıllıqlarla zəngin dağlıq ərazilərdir. Dağlar həm də insanların sığınacaq yeridir, dövlət və milli sərhədlərin müəyyən olunmasında vacib amildir. Ölkəmizdə ən yüksək dağ Böyük Qafqaz silsiləsindəki 4466 metr hündürlüyünə malik Bazardüzü zirvəsidir.

Kiçik Qafqaz dağ silsiləsində 3724 metrlə Gamışdağ, Naxçıvan Muxtar Respublikası ərazisində Dərələyəz və Zəngəzur dağlarında 3904 metrlə Qapıcıq, Talış silsiləsində isə 2493 metrlə Gömürgöy ən hündür zirvə hesab olunur. Dağların zirvəsi nə qədər hündür olursa, buzlaqlarda su ehtiyatı da bol olur. Dünyada olan 11 iqlimin 9-u Azərbaycandadır, buna da səbəb elə dağlarımızdır. Həm təbiətdə, həm də insan həyatında çox ciddi rol oynayan bu dağlar həyatımızdır desək, yanılmarıq. Böyük Qafqaz sıra dağları, eləcə də Kiçik Qafqaz sıra dağları meşələri, təmiz və quru havası, bənzərsiz bulaqları ilə məşhurdur. Bu dağlarda adı və dadı dillər əzbəri olan bulaqlar insan sağlamlığı üçün müalicə baxımından çox əhəmiyyətlidir.

Azərbaycanın qədim diyarı Naxçıvanın Duzdağı təkcə saf və təmiz duz mənbəyi deyil, həm də şəfa ocağıdır.



Astma xəstəliyi olan insanlar vaxtilə bu duz mağarasına gəlib primitiv üsullarla müalicə olardılar. İndi isə burada müasir sağlamlıq mərkəzi yaradılıb. Dağın altına doğru 300

metr uzanan və divarları sal duz qayaları ilə örtülü “Duzdağ” Fizioterapiya Mərkəzinin dünyada bənzəri yoxdur. Buraya gələnlər təxminən bir həftə gecələri duz mağarasında keçirərək şəfa taparlar.

Yerin 110 metr dərinliyində yerləşən xəstəxanada qadın, kişi, və uşaq palataları fəaliyyət göstərir. Havanın temperaturu 18-20 dərəcə isti, nisbi rütubət isə 24-50 faiz arasında dəyişir. Burada temperatur ilin bütün fəsillərində sabitdir, rütubət aşağıdır, havada zərərli qazlar yoxdur. Digər tərəfdən Naxçıvanın özündə havanın təmiz, iqlimin quru, günəşli günlərin çox olması xəstəxanada rütubətin səviyyəsini normal saxlayır.

Mərkəzdə duz layları arasında oksigen havanın 20 faizini təşkil edir ki, bu da ağ ciyər xəstəliklərindən əziyyət çəkənlər üçün əvəzsiz təbii dərmandır. Duzun tərkibindəki zəngin minerallar və kimyəvi elementlər də orqanizmə müsbət təsir göstərir. Oksigen və zəngin duz minerallarının yaratdığı havanın ağciyər xəstəliklərinin müalicəsində müstəsna əhəmiyyəti vardır. İlin istənilən fəslində uşaqlar 12-15, böyüklər isə 14-18 gün duzların əhatəsində yaşamaqla şəfa tapa bilərlər. Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun ərazisində yerləşən dağ. Ən hündür nöqtəsi dəniz səviyyəsindən 2415 metr yüksəklikdə yerləşir. Dağın adı iki söz birləşməsindən - Azərbaycan dilində “ilan” və “dağ” sözlərindən yaranıb.



İlandağın adı ilə bağlı bir neçə əfsanə mövcuddur. Onlardan birinə görə dağda və ətraf

ərazilərdə çox sayda ilan olduğundan yerli əhali buranın adını İlandağ qoyub.

Digər əfsanəyə görə, keçmiş zamanlarda dağ İnandağ adlanıb. Yerli əhali bu adı dağa Nuh peyğəmbərin verdiyini deyirlər. O, öz gəmisi ilə üzərkən qarşısına çıxan bütün dağlara adlar qoyurmuş.



Elə bu əfsanədə, ikiyə ayrılmış dağ zirvəsinin qeyri-adi quruluşuna da izahat verilir. Əfsanəyə görə Nuh peyğəmbərin gəmisi zərbə ilə dağa dəyib və bunun təsirindən dağ zirvəsi iki hissəyə parçalanıb. Bu səbəbdən dağ üçüncü – Haçadağ adını alıb.

Kiçik Qafqazın dağətəyi sahəsində günbəz-dağı Qazax rayonunun mərkəzdən 20 kilometr aralı, Alpoud və Abbasbəyli kəndləri ərazisində yerləşir.

Təbaşir dövründə vulkan püskürməsi zamanı əmələ gəldiyi ehtimal edilir. Yer səthindən hündürlüyü 250 metr, diametri 130 metrdən çoxdur. Dağ sanki basdırılmış sütuna bənzəyir.

Ətəyində iri və qədim yaşayış yerinin və yeddi bürclü qalanın qalıqları, həmçinin ilkin insan məskənlərindən olan mağara-otaqlar var. Zirvəsi yastıdır. Rəvayətə görə, qədimdə bayram günləri və ya təhlükə zamanı dağın zirvəsində tonqal qalanarmış. Adı ilə bağlı müxtəlif rəvayətlər və yozmalar mövcud olsa da, əsasən göylərə baş vuran - göy əzən sözlərinin birləşməsindən qaynaqlandığı ehtimal edilir.

## Digər ölkələrdə yerləşən dağlar

Yer kürəsinin quru sahəsini təxminən 25 faizi dağlardan ibarətdir. Onlar dünyanın çay sisteminin böyük hissəsini qidalandırır və mineral resurslarla zəngindir. Dağların yüksəkliklərində az adamın yaşamasına baxmayaraq, onlardan çoxu qayalara dırmaşma və ya xizək sürmə kimi idman növlərində dağlardan istifadə edirlər. Asiyanın 64, Şimali Amerikanın 56, Cənubi Amerikanın 22, Avropanın 25, Avstraliyanın 17, Afrikanın 3 faizi dağlardan ibarətdir. Dünyanın ən yüksək dağı Himalaydır ki, onun da ən yüksək zirvəsi 8848 metr olan Everestdir. Himalay Pakistan, Hindistan, Butan, Tibet və Nepal ölkələrinin ərazisindən keçir. Dağ silsiləsi 30 dağdan və dünyanın 9 ən uca zirvəsindən ibarətdir. O, şimalda Tibet platosu, cənubda isə Hindistan düzü ilə sərhəd rolunu oynayır. Silsilənin ümumi uzunluğu 2400 km-dir. Həmçinin, Himalay Cənubi Asiya ölkələrinin mifologiyasında böyük rola malikdir. Əsrlərlə Himalay Nepal və Hindistan inanclılar üçün ziyarət məkanı, alpinistlər üçün isə ən böyük məqsəd olmuşdu. Edmund Hillari və Tensinq Norveyin Everesti fəthindən sonra Himalaya olan maraq bir qədər də artır.  Dağlar adətən, zəncir şəklində uzanır ki, onlara da sıra dağları deyilir. Dünyanın ən uzun dağ silsiləsi Cənubi Amerikanın qərbindəki And dağlarıdır. Onun uzunluğu 9 min kilometrdir.



Havay dağlarında Mauna Kea dağı okean səviyyəsindən 10203 m hündürlükdə ən hündür dağdır. Onun yalnız 4205 m

hissəsi dəniz səviyyəsindən görünür. Hündürlüyün artması ilə oksigenin səviyyəsi kəskin şəkildə aşağı düşür.



Olimp - Mars planetində yerləşən Günəş sisteminin ən hündür dağıdır. Sönmüş vulkan olan dağ, Yunanıstandakı Olimp dağının şərəfinə adlandırılıb.

Dağın hündürlüyü 26 kilometrə yaxındır, bu göstərici ilə Olimp Yer kürəsinin ən böyük dağı olan Everesti üç dəfə üstələyir, dağın diametri təxminən 540 kilometrdir. Olimp Mars planetinin ekvatorial Farsida bölgəsində yerləşir. Kosmik gəmilərin uçuşlarından əvvəl bu yer astronomlara "Nix Olympica" ("Olimp qarları") kimi tanınırdı.



Çinin şərqindəki Anhuy əyalətinin cənubunda yerləşən Huanşan dağ silsiləsi 1200 km² sahəni əhatə edir. Milli təbiət qoruğu olan bu dağ silsiləsində 77 təpənin hündürlüyü 1000 metrdən çoxdur. Bura sanki yüksək təpələrin, dərin vadilərin, bulud dənizinin gözoxşayan harmoniyasıdır.

Huanşan sözü Çin dilindən tərcümədə "Sarı dağ" mənasını verir. Əvvəllər "İşan" adlanan dağ hazırkı adını 747-ci ildə Tan sülaləsinin hakimiyyəti dövründə alıb. Təbii mənzərəsi, sərt qayaları, buludları ötən təpələri, zəngin bitki örtüyü, bulaqları ilə məşhur olan Huanşan dağının Çin

mədəniyyətində yeri böyükdür. Bu dağ daim yaradıcı adamların ilham mənbəyi olub. Tarix boyu çinli şairlər, yazıçılar əsərlərində Huanşan dağından, onun gözəlliyindən bəhs edib, rəssamlar, heykəltəraşlar dağı təsvir ediblər. Elə günümüzdə də Huanşan dağları şair və yazıçıların, rəssamların, fotoqrafların tez-tez baş çəkdiyi məkandır. UNESCO Huanşan dağının Çin mədəniyyətindəki rolunu nəzərə alaraq, onu 1990-cı ildə mədəniyyət və təbiət kriteriyası üzrə Dünya İrs Siyahısına daxil edib.



Yerlilərin "Rəngli Təpə" adını verdiyi Yeddi rəngli və ya Göyqurşağı dağı "Vinikunka" (Rainbow Mountain), əfsanəvi And dağlarının Vilkanot sırasında yerləşir. Bu dağ təbiətin yaratdığı möcüzə sayılır. Dağların üstü müxtəlif: sarı, qırmızı, ağ, mavi, boz, narıncı rənglərlə örtülüb.

Müxtəlif mineralların minillərlə qatmaqlar əmələ gətirməsi ilə meydana gələn göyqurşağı dağı rəngarəngliyi ilə hamını heyran qoyur. Yer üzündə tayı bərabəri olmayan göyqurşağı dağını görmək üçün turistlər buraya axın edirlər. Hündürlüyü 6300 metr olan dağa turistləri yerli camaat aparır.

2016-cı ildən başlayaraq turist qəbul edən dağ, hal-hazırda ziyarətçilərin, hətta elm adamlarının axın etdiyi ən məşhur yerlərdən biridir.

Alimlərin fikrincə, milyonlarla il əvvəl bu dağ vadisi tamamilə su ilə örtülü göl olub. Bura müxtəlif çaylar, bulaqlar

tökülüb. Həmin axınların gölə gətirdiyi çöküntü, daşların və suyun dibinə çöküb, müxtəlif qat maddələr sayəsində heterojen tərkibli bir alt təbəqə yaranıb.

70 milyon il əvvəl iqlim dəyişikliyi səbəbiylə göl qurumağa başlayıb, çöküntü daşlar günəş və külək təsirinə məruz qalıb. Bu amillərin təsiri altında, alt qayaların bir hissəsi oksidləşərək rəngini dəyişdirib. Dağların formalaşma prosesinin intensivləşməsi nəticəsində rəngli-çalarlı təpələr meydana gəlib.



Braziliyanın Rio-de-Janeyro şəhərində yerləşən, hündürlüyü 396 m olan bu dağı yerlilər "Pan di Asukar", yəni "Kəllə qənd" və ya "Şəkər çörəyi" adlandırırlar. Rio-de-Janeyroda tursitlərin ən çox baş çəkdiyi görməli yerlərdən biridir.
Pan di Asukar olduqca kiçik dağdır, hündürlüyü cəmi 369 metrdir, lakin bu, onun şəhərin və ətrafın gözəl mənzərəsini təqdim edən möhtəşəm "müşahidə göyərtəsi" olmasına mane olmur. Dağın zirvəsindən dəniz və qızıl qumların heyrətamiz mənzərəsi, şəhərin gecə panoraması və məşhur Məsih heykəlini seyr etmək olduqca möhtəşəmdir. Pan di Asukar dağı maqmatik süxurların aşınması nəticəsində heyrətamiz formasını almışdır. Torpağın xüsusi tərkibinə görə yamaclarda bitki örtüyü demək olar ki, yoxdur. İlk olraq XVI-cı əsrin ortalarında Braziliya sakinləri Pan di Asukar dağının ətəyində məskunlaşmış, daha sonradan Rio-de-

Janeyro şəhəri kiçik bir qəsəbədən böyük meqapolisə çevrilmişdir.

1817-ci ildə ingilis tibb bacısı Henrietta Karsteyrs Pan di Asukar dağının zirvəsinə Britaniya İmperiyasının bayrağını sancan ilk alpinistir. Yalnız XX əsrin əvvəllərində, yəni 1903-cü ildə Braziliya hökuməti dağın zirvəsinə kanat yolu tikmək qərarına gəldi, bunun sayəsində bu gün hər kəs rahat funikulyorda zirvədəki müşahidə göyərtəsinə çıxa bilər. "Kəllə qənd" dağının simvolu, 28-ci Dünya Gənclər Günü üçün müəlliflər tərəfindən loqo kimi istifadə edilmişdir. Dağda bir neçə bahalı restoran var.

**Dahi şəxsiyyətlərin dağlar haqqında söylədikləri sitatlar**

Mən dağları fəth etmək fikrində deyiləm - onlar da insanlar qədər dünyanın bir parçasıdır. Mən özümü fəth edirəm.

**Vanda Rutkeviç**

Həyat bir dağdır: yavaş-yavaş qalxırsan, tez enirsən.

**Guy de Maupassant**

Hər kəs bir dağın zirvəsində yaşamaq istəyir, amma xoşbəxtlik və inkişaf siz zirvəyə çatdığınız zaman deyil, ona qalxdığınız zaman olur. Dağın lap başında olan adam ora göydən düşmədi.

**Konfutsi**

Dağlarda şəfəq insanın başına gələ biləcək ən yaxşı hadisədir.

**Maks Fry**

Əgər siz Himalay dağlarının bir yerində oturursunuzsa və səssizlik sizi əhatə edirsə - bu Himalayların səssizliyidir, amma sizin deyil. Öz Himalaylarınızı özünüzdə tapmalısınız.

**Osho**

Dağlarda nə düzlük, nə hiylə var. Onlar sadəcə təhlükəlidirlər.

**Reinhold Messner**

Bu dünya dağdır, hərəkətlərimiz isə qışqırıqdır: dağlardakı fəryadımızın əks-sədası həmişə bizə qayıdır.

**Mövlana Cəlaləddin Rumi**

Böyük şairlərin uca dağlar kimi saysız-hesabsız əks-sədaları var. Onların mahnıları bütün dillərdə təkrarlanır.

**Viktor Hüqo**

Dağlar təbiətin qeyri-adi gözəl yaradılışıdır. Dağlarda insan azadlıq hiss edir və həyat yolunda bütün maneələri dəf etməyi öyrənir.

**Mark Levy**

Uçuruma düşəndə, dağa qalxmağın daha təhlükəsiz yolu olub-olmadığını düşünmək çox gecdir.

**Terry Pratchett**

Dağlarda insanlar arasında xüsusi bağlar yaranır. Buna görə də onları qarşısıalınmaz dərəcədə cəlb edirəm.

**Ayı Grylls**

Dağlar təbiətin fövqəladə dərəcədə gözəl bir yaradılışıdır. Dağlarda insan özünü azad hiss edir və həyat yolundaki bütün maneələri aşmağı öyrənir.

**Henri Ford**

## Şeir müsabiqəsi

Kitabxananın kiçik oxu zalında şeir müsabiqəsi keçirmək məqsədəuyğundur. Müsabiqədə iştirak etmək istəyən kiçikyaşlılar öncədən təyin olunmuş zamanda kitabxanaya gələrək müsabiqəyə qatıla bilərlər. Mövzu ilə əlaqədar düzgün intonasiya ilə şeir söyləyən oxucu qalib sayılır.Tədbirin sonunda kitabxana rəhbərliyi qalib iştirakçını maraqlı kitablarla mükafatlandırır. Həmin şeirlərdən bir neçə nümunəni sizlərə təqdim edirik.

### Qara Namazov, "El çələngi"

Bir ay yarım nobahardan keçəndə,
Car olur köksündən sellərin, dağlar!
Çalxanır sonalar, çığrışır qazlar,
Zəm-zəm zümzüməli göllərin, dağlar!

Hanı mən gördüyüm qurğu-büsatlar!?
Dərdməndlər görsə, tez bağrı çatlar;
Mələşmir sürülər, kişnəşmir atlar,
Niyə pərişandı halların, dağlar?!

Hanı bu yaylaqda yaylayan ellər!?

Görəndə gözümdən car oldu sellər.
Seyr etmir köksündə türfə gözəllər,
Sancılmır buxağa gullərin, dağlar!

Hanı mərd iyidlər, boş qalıb yurdu!?
Səxavətdə Eldar nur-alə-nurdu.
Erkək kəsib, ağır məclis qururdu,
Şülən çəkilirdi malların, dağlar!

Gözəllər çeşməndən götürmür abı,
Dad verə dəhanda Kövsər şərabı.
Xaçpərəstlə düşdü Bund inqilabı,
Onunçün bağlandı yolların, dağlar!

Sarınərdən top-tüfəngin atılır
Qısır Murğuz Şah-dağına çatılır.
Bir əmliyin bir tümənə satılır,
Xəzəl olur yenə püllərın, dağlar!

Kəpəz, Murov, Qonur - gör neçə dağ var…
Üstünə nur yağsın, ay dəli Qoşqar!
Yayın orta ayında yağdırırsan qar,
Səf çəkib üstündə salların, dağlar!

Elə ki, şər gəldi, qaraltdı qaşı,
Dumana qərq olur dağların başı.
Düşəndə gürg ilə kəlbin savaşı,
Uzun çəkir qiylü-qalların, dağlar!

Halıyam Eldarın var cümləsindən,
Gecə yatmır bir-birinin bəhsindən.

İyid nərəsindən, güllə səsindən
Dəyməmiş tökülür kalların, dağlar!

Həsənnənə, Həsənbaba qoşadı,
Xaşbulaq yaylağı xoş tamaşadı.
Arsız aşıq elsiz niyə yaşadı,
Ölsün Ələsgərtək qulların, dağlar!

**Araz Yaquboğlu, "Daşkənd və daşkəndlilər"**

Bahar fəsli, yaz ayları gələndə,
Süsənli, sünbüllü, lalalı dağlar,
Yoxsulu, ərbabı, şahı, gədanı,
Tutmaz bir-birindən aralı dağlar.

Xəstə üçün təpəsində qar olur,
Hər cür çiçək açır, laləzar olur,
Çeşməsindən abi-həyat car olur,
Dağıdır möhnəti, məlalı dağlar.

Yazın bir ayıdı çox yaxşı çağın,
Kəsilməz çeşməndən gözəl yığnağın,
Axtarma motalın, yağın, qaymağın...
Zənbur çiçəyindən bal alı, dağlar!

Yayın əvvəlində dönərsən xana,
Son ayda bənzərsən yetkin bostana,
Payızın zəhməri qoyur virana,
Dağıdar üstündən calalı, dağlar!

Gahdan çiskin tökər, gah duman eylər,
Gah gəlib-gedəni peşiman eylər,
Gahdan qeyzə gələr, nahaq qan eylər,
Dinşəməz haramı, halalı dağlar.

Ağ xələt bürünər, zərnişan geyməz,
Heç kəsi dindirib keyfinə dəyməz,
Sərdara söz deməz, şaha baş əyməz,
Qüdrətdən səngərli, qalalı dağlar.

Köçər ellər, düşər səndən aralı,
Firqətindən gül-nərgizin saralı,
Ələsgər Məcnuntək yardan yaralı,
Gəzər səndə dərdli, nalalı, dağlar!

**Dağlar**

Mən aşıq yastı dağlar,
Qar gəldi, basdı dağlar.
Üç ay toylu-bayramlı,
Doqquz ay yaslı dağlar.

Bu dağlar qoşa dağlar,
Verib baş-başa dağlar.
Səndə dostum gəzibdir,
Səni yüz yaşa, dağlar.

Dağlar marala qaldı,
Otu sarala qaldı.
Soyuq bulaq, göy yaylaq
Yenə marala qaldı.

Başı çalmalı dağlar,
Dibi kölgəli dağlar.
Oturub yol gözlərəm,
Haçan el gəli, dağlar?!

**Səməd Vurğun "DAĞLAR"**

Binələri çadır-çadır
Çox gəzmişəm özüm, dağlar!
Qüdrətini sizdən aldı
Mənim sazım, sözüm, dağlar!

Maral gəzər asta – asta,
Enib gələr çeşmə üstə.
Gözüm yolda, könlüm səsdə,
Deyin, necə dözüm, dağlar?

Hər obanın bir yaylağı,
Hər tərlanın öz oylağı,
Dolaylarda bahar çağı,
Bir doyunca gəzim, dağlar!

Qayaları baş–başadır,
Güneyləri tamaşadır.
Gödək ömrü çox yaşadır,
Canım dağlar, gözüm dağlar!

Bir qonağam bu dünyada,
Bir gün ömrüm gedər bada,
Vurğunu da salar yada
Düz ilqarlı bizim dağlar

**Rəsm müsabiqəsi**

11 dekabr Beynəlxalq dağlar günü münasibəti ilə kitabxanada rəsm müsabiqəsi keçirmək olar. Müsabiqəyə 4-10 yaş aralığında uşaqların iştirakına icazə verilir. Öncədən söylənilmiş tarixdə uşaqlar kitabxanaya gələrək onlar üçün xüsusi ayrılmış otaqda şəkilləri çəkib, sonda ad, soyadlarını qeyd edərək metodistə təhvil verirlər. Müsabiqə sayəsində uşaqların xəyal dünyasının nə qədər zəngin olduğunu görə bilərik. Sonda qalibə kitabxana tərəfindən maraqlı nağıl kitabları hədiyyə olunur. İndi isə sizə həmin şəkilləri təqdim edirik.








iStock
by Getty Images
1295014805











## Dağlar günü ilə bağlı kitabxanada keçiriləcək tədbirlər

Dağlar günü ilə bağlı kitabxanada müxtəlif tədbirlər, müsabiqələr, viktorinalar keçirmək məqsədəuyğundur. Tədbir zamanı metodist uşaqlara həmin gün ilə bağlı maraqlı məlumatlar verir. Həmin məlumatlar ətrafında metodist uşaqlarla "Mən dağları necə tanıyıram?" adlı viktorina keçirir. İndi isə sizlərə həmin viktorinadan sualları təqdim edək:

1.Beynəlxalq dağlar günü nə zamandır?

Cavab: 11dekabr

2.Dağlar mənşəyinə görə neçə yerə bölünür və hansılardır?

Cavab: Tektonik və Vulkanik dağlar

3.Kim deyə bilər dağ nəyə deyilir?

Cavab: Dağ təpədən uca, quruluqlarda yer üzündən ucalan yerlərə deyilir.

4.Azərbaycanda yerləşən hansı dağları tanıyırsız?

Cavab: Böyük Qafqaz, Kiçik Qafqaz, Talış və Zəngəzur-Dərələyəz dağları. İlandağ və s.

5.Hündürlüyünə görə dağlar neçə yerə ayrılır?

Cavab: Alçaq dağlar, Orta dağlar, Yüksək dağlar

6.Dağlar haqqında kim şeir bilir?

Cavab:---------------------------------

7.Dağın ən yüksək hissəsi necə adlanır?

Cavab: Dağın zirvəsi

8.Dünyanın ən böyük dağı hansıdır?

Cavab: Himalay

9.Azərbaycanda ən yüksək dağ hansıdır?

Cavab: Bazardüzü zirvəsi

10.Dağ sözü neçə hecalıdır?

Cavab: tək hecalı

11. Bazardüzü zirvəsinin hündürlüyü nə qədərdir?

Cavab: 4466 metr hündürlüyündə

12. Dağlara qalxan insanlara nə deyilir?

Cavab: Alpinist

**Nağıl saatı**

Kitabxananın nağıl otağında metodist kiçikyaşlılara 11 dekabr "Beynəlxalq Dağlar" günü ilə bağlı olaraq "Günəş dağı" nağılını söyləyir. Kiçikyaşlılar maraqla nağılı dinləyirlər. Sonda metodist nağıl ətrafında sual-cavab edir. Metodist nağılı diqqətlə dinləyən oxuculardan birinə nağıl kitabını hədiyyə edir. Həmin nağılı sizlərə təqdim edirik:

Bir vaxtlar iki qardaş yaşayırdı. Böyük qardaş xəsis və acgöz idi. O, atasının bütün mirasına sahib çıxmaq üçün

səbirsizlənirdi. Atası öldükdə isə bir hiylə edib qardaşını aldatmağa qərar verdi. Bir axşam qardaşına yaxınlaşıb dedi:

- Qardaş, atamızın mirasını bölüşməyin zamanı gəldi. Sabah erkən durub gedək torpağı şumlayaq. Kim daha çox torpaq şumlayarsa, bütün miras ona çatacaq. Yalnız bir şərt var: səhər heç bir şey yeməməliyik.

Kiçik qardaş həmişə böyük qardaşa itaət edirdi, ona görə də onunla razılaşdı.

Səhər böyük qardaş lap tezdən oyandı. Arvadı ona səhər yeməyi hazırladı, doyunca yedi, sonra kiçik qardaşını oyatdı:

- Yaxşı, qalx. Gədək torpağı şumlamağa!

Onlar tarlaya getdilər və torpağı şumlamağa başladılar.

Böyük qardaş tox olduğundan sürətlə işləyirdi. Ac olan kiçik qardaş üçün isə onunla ayaqlaşmaq çətin idi.

Beləliklə, bütün miras böyüyün əlinə keçdi və kiçik qardaşa heç bir şey qalmadı.

Kiçik qardaş məcbur qalıb dağa getməli oldu. Bir mağarada yerləşdi. Taxta doğrayıb satdı və birtəhər çörəkpulu qazandı.

Bir gün odun yığmaq üçün meşəyə getdi. Birdən ağacın üstündə böyük bir quş yuvası gördü. Bir çubuq götürüb onu yıxmağa çalışdı. Yuvadan bir sağsağan uçdu və ona yalvararaq dedi:

- Yuvamı yıxma! Mükafat olaraq səni xəzinələr üçün Günəş dağına aparacam.

- Hansı xəzinələr? - kiçik qardaş təəccüblə ondan soruşdu.

“Günəş doğmazdan əvvəl bura gəl və özünlə kiçik bir çanta götür. O zaman sənə hansı xəzinələrin olduğunu göstərəcəm." Ertəsi gün, sübh çağı kiçik qardaş özü ilə birlikdə kiçik bir çanta götürdü və sağsağanın arxasınca Günəş dağına tərəf getdi.

Dağın zirvəsinə qalxanda kiçik qardaş gözlərinə inanmadı: qarşısında qızıl, inci və müxtəlif qiymətli daşlar yatırdı. Çantasını xəzinələrlə doldurdu, sağsağana təşəkkür edib, evə qayıtdı.

Tezliklə o, mağaranı tərk etdi, özünə gözəl bir ev tikdi və bolluq içində yaşamağa başladı.

Böyük qardaş kiçik qardaşından necə zənginləşdiyinin yolunu öyrənib , onu qısqandı. Bir çubuq götürüb meşəyə qaçdı və sağsağanın yuvasını dağıtmağa başladı. Yenidən sağsağan yuvasından çıxdı və böyük qardaşa Günəş dağına aparacağına söz verdi.

"Bax, özünlə kiçik bir çanta götür!" - quş böyük qardaşa bərk-bərk tapşırdı.

Böyük qardaş öz-özünə belə bir çantanın onun üçün çox kiçik olacağını düşündü. Evə qayıtdı və arvadına parçadan böyük bir çanta tikməsini söylədi.

Ertəsi gün, sübh çağı böyük qardaş sağsağanın arxası ilə Günəş dağına çıxdı. Qızıl, inci və qiymətli daşları görəndə dünyadakı hər şeyi unutdu və çantasını tez doldurmağa başladı. Ancaq çanta çox böyük idi və böyük qardaş onu o qədər doldurdu ki, günəşin ilk şüaları göydə görünməyə başladı.

- Gəl qaçaq, - sağsağan xəbərdarlıq etdi,- yoxsa günəş çıxıb bizi yandıracaq!

Ancaq böyük qardaş sözə qulaq asmadı- xəzinədən mümkün qədər çox götürmək istədi. Quş onu nə qədər tələsdirsə də, o, çantasına daha çox daş-qaş yığmağa çalışdı. Artıq Günəş doğmuşdur. Günəş, həris bir adamın onun dağına ağalıq etdiyini gördü və onu yandırıb külə çevirdi.

Yaşlı insanlar hər zaman bu cür söyləyirlər: Günəş heç vaxt kasıb insanı incitməyir, tam tərsinə, isidir və nə vaxtsa qızılından bir hissəcik ona verəcəkdir. Ancaq acgöz və zəngin adam hər şeyi yalnız özü üçün ələ keçirtmək istəsə, qəzəbli Günəş onu şüaları ilə yandıracaqdır.

**Səhnəcik**

Kitabxananın Nağıl otağında məktəblilər hazırladıqları səhnəciyi göstərirlər. Tədbirdə kitabxana rəhbərliyi, məktəb rəhbərliyi iştirak edir. Sıra Aranla Dağın bəhsinə tamaşa etməyə gəlir.

**Aparıcı:** Salam Dəyərli qonaqlar!
Bu gün 11 dekabr Beynəlxalq dağlar günü münasibəti ilə kitabxanamızda keçirilən tədbirə xoş gəlmisiniz.

Məktəblilərin sizlər üçün bu günə özəl hazırladıqları Aranla Dağın bəhsi tamaşasını ümid edirik ki, bəyənəcəksiz.

**Dağ deyər:**

Yazın əvvəlindən suların qızar.
Qızdırma uşağın ürəyin üzər.
Gözəllər, məhbublar sinəmdə gəzər.
Xırda-xırda aşan yollar məndədi.

**Aran deyər:**
Süsənli, sünbüllü, güllü bağlarım.
Şam içində şölə çəkir yağlarım.
Bostandakı ala-bəzək tağlarım.
Qarpız, xiyar, dürlü nübar məndədi.

**Dağ deyər:**

Səfalı yaylağam başdan-binadan.
Sinəmdə bitibdi çox güli-xəndan.
Məndən dərs alıbdı neçə min loğman.
Dürlü-dürlü gözəl hallar məndədi.

**Aran deyər:**

Mənə həsrət çəkər buzlu qayalar.
Səndən dad eləyən məndən hay alar.
Baş-başa çatılı sarı mayalar.
Xırmanda çevrilən vəllər məndədi.

**Dağ deyər:**

İstərəm kütah edim bəhsimi.
Sənə baxıb ötürmərəm köksümü.
Dostum, həmdəmimdi yazın möhsümü.
Şux sənəmlər, incə bellər məndədi.

## İnşa müsabiqəsi

Kiçik yaşdan uşaqların inşa yazı sahəsində öz yaradıcılıqlarını nümayiş etdirə bilmələri üçün məktəbyaşlı uşaqlar arasında inşa müsabiqəsi keçirilə bilər. Müsabiqədə uşaqların xəyal dünyasında dağları necə tərənnüm etdiklərini aydın görə bilərik. Kitabxanaçı müsabiqənin kitabxanada təşkil ediləcəyi gün haqqında oxuculara məlumat verir, şərtlərlə tanış edir. Müsabiqədən əvvəl iştirakla bağlı kitabxananın rəsmi saytında elan yerləşdirilir. İştirak etmək istəyən hər bir oxucu öncədən təyin olunmuş zamanda inşasını təqdim edir. Sonda rəhbərlik tərəfindən seçilmiş qalib mükafatlandırılır.

**Müsabiqənin şərtləri:**

1. Müsabiqəyə təqdim olunan inşaların əsas mövzusu Dağlar ilə bağlı olmalıdır;

2. İnşalar Microsoft Word mətn redaktorunda A4 formatında, Times New Roman şrifti ilə 12 pt. ölçüdə hazırlanmalıdır.

3. Müsabiqədə iştirak etmək üçün dekabrın 10-dan gec olmayaraq kitabxananın saytından qeydiyyatdan keçmək lazımdır.

4. Münsiflər tərəfindən bəyənilən inşalar rayon qəzetində, kitabxanın saytında və sosial şəbəkələrdə paylaşılacaq.

Dağlar həm də insanların sığınacaq yeridir, dövlət və milli sərhədlərin müəyyən olunmasında vacib amildir. Onlar dünyanın çay sisteminin böyük hissəsini qidalandırır və mineral resurslarla zəngindir.

Məhəmmədhüseyn Şəhriyar dağla üzbəüz durub, ancaq o dərəcədə səmimi, o qədər ürəkdən onunla "dərdləşir" ki, Heydərbabanın müdrik, bir az yorğun, bir az nisgilli "ruhu" canlanır qarşımızda:

Heydərbaba, yolum sənnən gəc oldu,

Ömrüm keçdi, gələmmədim, gec oldu,

Heç bilmədim gözəllərin nec oldu,

Bilməz idim döngələr var, dönüm var,

İtginlik var, ayrılıq var, ölüm var.

**Mövzu ilə bağlı F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin hazırladığı ədəbiyyat siyahısı**

**Kitablarda**


**Araz M.** Əlvida, dağlar! : şeir // Seçilmiş əsərlər. 4 cilddə. C. 1. - Bakı : Ozan, 2004. - S. 147.

**Bayram T.** Dağlar : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 162-164.

**Bəxtiyar X**. Dağlar məni qocaltdı : poeziya. - Bakı : Şirvannəşr, 2004. - 200 s.

**Dalğın N.** Dağlar : şeir // Ürəklərdə bəslənən sevdaya şükür. - Bakı : MBM, 2008. - S. 33.

Hər suala bir cavab : ensiklopedik toplu. C. 1. - Bakı : Azərbaycan Tərcümə Mərkəzi, 2016. - 368 s.

**Hüseyn Y.** Dağlar : şeir // Bir parça ömür yolu. - Bakı : Araz, 2004. - S. 30.

**İldırım A.** A dağlar : şeir // Boğulmayan səs. - Bakı : Avrasiya Press, 2007. - S. 281.

**İldırım A.** Neçin, ; Dağlara vida ; Dağlar və b. : şeirlər // XX əsr Azərbaycan poeziyası antologiyası. I kitab : 1920-ci illərin poeziyası. - Bakı : Elm, 2009. - S. 325-337.

**İsmayılova X.** Gedə bilmədim dağlara : şeir // Könlüm Qarabağdadı. - Bakı : Nərgiz, 2006. - S. 104-105.

**İsmayılova X.** İlisu dağlarında : şeir // Könlüm Qarabağdadı. - Bakı : Nərgiz, 2006. - S. 120.

**İsmayılova X.** Yuxuma gəlmişdi dağlar bu axşam : şeir // Könlüm Qarabağdadı. - Bakı : Nərgiz, 2006. - S. 92.

**Qaneri A.** Dağların tədqiqi : ingilis dilindən tərcümə. - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2016. - 32 s.

**Qarayev İ.** Dağlar dağımdır mənim. - Bakı : Çinar-çap, 2003. - 304 s.

**Qəhrəmanoğlu Ə.** Dağlar, Vətən amanatı : şeirlər. - Bakı : Nərgiz, 2005. – 284 s.

**Qurbani S.** Məni unutmayın, dağlar! : şeirlər. - Bakı : Asel, 2009. - 68 s.

**Nəbioğlu N.** Bağışlamaz dağlar məni : Şeirlər. - Bakı : Qrif, 2004. - 438 s.

**Oksleyd K.** Dağlar : (ingilis dilindən tərcümə). - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2015. - 32 s.

**Rahim M.** Dağlar : şeir // Seçilmiş əsərləri. - Bakı : Avrasiya Press, 2006. - S. 207.

**Rüstəmxanlı S.** Dağlar : şeir // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S. 263.

**Rüstəmxanlı S.** Dağlardan dağlara danışın... : şeir // Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2004. - S. 139.

**Rza X.** Dağlara qalxıram : şeir // Seçilmiş əsərləri. 2 cilddə. C. 1. - Bakı : Şərq-Qərb, 2005. - S. 79-81.

**Səfərli İ.** Dağlar : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 163.

**Səfərli İ.** Laçın dağlarında : şeirlər. - Bakı : Lider, 2005. - S. 117-118.

**Sücaət.** Dəlidağın dəliləri hardadı?! : Poeziya. - Bakı : Çinar-çap, 2006. - 176 s

**Uslu T.** Şu acayip yeryüzü : Yeryüzünün, Həyat Bilgisi ve Fen Bilgisi kitaplarında yazmayan, çok acayip gerçekleri. - Ankara : Uğurböceği Yayınları, 2009. - 160 s.

**Vəliyev S.** Dağlar ətəyində : hekayə // Azərbaycan nəsri antologiyası. 5 cilddə. - Bakı : Şərq-Qərb, 2006. - C. IV. - S. 77-97.

**Yaqub M.** Bir elli dağlar : şeir // Bu dünyanın qara daşı göyərməz. - Bakı : Azərnəşr, 2007. - S. 579-580.

**Yaqub Z**. Göndərim : şeirlər // Seçilmiş əsərləri. 2 cilddə. C. 2. - Bakı : Şərq-Qərb, 2006. - S. 174-175. - "Bəhmən Vətənoğluna məktublar" silsiləsindən.

Yaşıl kitab : Dağlar, düzlər, çöllər, çəmənlər, çaylar, dənizlər, ağaclar, yamaclar. uçanlar. üzənlər. qaçanlar... bir sözlə, təbiət haqqında kitab. - Bakı : Tutu Uşaq Mədəniyyət Mərkəzi, 1998. - 28 s.

**Dövri mətbuatda**

**Abbas S**. İsa bulağı ; Ucalıqdan bir düz keçər ; Qısqandı Sənan dağı : şeirlər // Ədəbiyyat qəzeti. - 2023. - 7 yanvar. - № 1. - S. 16.

**Abbasov F.** Dayanıbdı dağ təki Dağlar qoynunda Şəki // Azərbaycan. - 2006. - 16 dekabr. - S. 4.

**Araz M.** Əlvida dağlar : şeir // Savalan. - 2007. - 25-27 sentyabr. - S.3.

**Araz M**. Əlvida, dağlar : şeir // Savalan. - 2020. - 14-20 yanvar. - № 1. - S. 8.

**Aslanxanlı M**. İndi o qız harda, o dağlar harda ; Sülh necə yaranır ; Xatirələrdən və b. : şeirlər // Azərbaycan : jurnal. - 2022. - № 6. - S. 83-86.

**Azəroğlu B.** Bənövşə əkilib xiyabanlara ; Yuxuma gəlmişdin ; Dağlar ; Ömrüm : şeirlər // Ədəbiyyat qəzeti. - 2011. - 18 noyabr. - № 42. - S. 1, 3.

**Azəroğlu.** Kamança : Payız ; Dağlar və s. : şeirlər // Ədəbiyyat qəzeti. - 2009. - 27 fevral. - S. 3.

**Behrudi R**. Dağlar duman olmadan : şeir // Ədəbiyyat qəzeti. - 2017. - 16 sentyabr. - № 32. - S. 11.

**Boysunar T**. Dağlar susur dekbarın ilk qarına... : şeir // Ədəbiyyat qəzeti. - 2018. - 29 sentyabr. - № 36. - S. 6-7.

**Bozalqanlı M**. Dağlar : şeir // Palitra. - 2018. - 6 sentyabr. - № 150. - S. 15.

**Cəfərli R**. Alov dağlar diyarında : Məşəl Daşkəsəndə alovlandı // Azərbaycan : qəzet. - 2015. - 17 may. - № 104. - S. 3.

**Cəfərova A**. Niyə pərişandı halların, dağlar?! : Əhməd Cavad yaradıcılığında folklor düşüncəsi // İki sahil. - 2022. - 11 may. - № 81. - S. 12.

Dağlardan **aya baxdım...** : hekayə // Savalan. - 2023. - 2-8 may. - № 15. - S. 8.

**Dəmirçi Qayalı Z**. Şuşam ; Dağlara ; Yazılsın bu gün və b. : şeirlər // Azərbaycan : jurnal. - 2022. - № 3/4. - S. 174-178.

**Dünya G**. Nə dərdim ; Vətən ; Olmasa ; Dağlar : şeirlər // Ədəbiyyat qəzeti. - 2010. - 5 fevral. - **N 5**. - S. 4.

**Ədiloğlu N**. Dağlar yıxılanda yaşananlar : Böyük yazıçı Çingiz Aytmatovun son romanı haqqında // 525-ci qəzet. - 2022. - 30 iyun. - № 113. - S. 12.

**Əlioğlu Ç**. Qarışqa payı ; Dağlar ; Unuda bilmirəm və b. şeirlər // 525-ci qəzet. - 2019. - 20 iyul. - № 103. - S. 16.

**Əliyev C.** Dağlar ; Oyatma ; On ildi... : şeirlər // Azərbaycan. - 2010. - N 2. - S. 126-128.

**Əsədov V.** O, dağlar, ulu dağlar... // Ulduz. - 2007. - № 5. - S.16-19.

**Hacxəlil H**. Bənövşə ; Dağlar ; Alça ağacına və b. : şeirlər // Ulduz. - 2021. - № 5(624). - S. 77-80.

**Hacılı N.** Dağlar ; Neylədiz : şeirlər // Ulduz. - 2009. - № 1. - S. 34.

**Hesse H**. Dağ : esse // Ədəbiyyat qəzeti. - 2017. - 11 fevral. - № 5. - S. 8-9.

**Həsənov İ**. Balakən: Gözəlləşən, yeniləşən diyar : dağlar baharı gözləyir// Xalq qəzeti. - 2007. - 11 mart. - S. 7.

**Həsrət Ə**. Dağlar ; Ən bahalı xatirə ; Gözəllər qocalmasın və b. : şeirlər // Ulduz. - 2022. - № 5(636). - S. 49-51.

**Həsrət Ə**. Koğuşda bitən çiçək ; Şairlərin ruzusu ; Dağlar və b. : şeirlər // Azərbaycan : jurnal. - 2021. - № 12. - S. 162-165.

**Hüseynov B**. Gözü yol çəkən dağlar : Yardımlı abidələrinə atüstü nəzər... // Qobustan. - 2017. - № 1. - S. 15-17.

**Xəlilova A**. Tarixin və mədəniyyətin Xınalıq zirvəsi : Bizi dağlarda axtarın... // Azərbaycan : qəzet. - 2022. -18 may. - № 103. - S. 10.

**İldırım A.** A dağlar ; Nə üçün : şeirlər // Azad Azərbaycan. - 2007. - 22 iyul. - S.7.

**İldırım A**. Dağlar ; Azərbaycan, mənim bəxtsiz anam oy!... : şeirlər // Azərbaycan. - 2007. - 4 aprel. - S. 6.

**İsayev Ə.** Dağların sərvəti heyranlıq doğurur : 2011-ci il Turizm ilidir // Azərbaycan. - 2011. - 23 oktyabr. - № 235. - S. 3.

**Kazımlı K**. Azərbaycanım ; Bənövşə ; Mənim ; Dağlar : şeirlər // Mədəni - Maarif. - 2005. - № 11. - S.60.

**Kəngərli Q**. Avestanın yazıldığı dağ - Müqəddəs Süleyman-Too // Xalq qəzeti. - 2023. - 2 avqust. - № 161. - S. 10.

**Qasımov H**. Gədəbəy - ulu dağlar qoynunda məğrur diyar // Xalq qəzeti. - 2006. - 12 fevral. - S.6.

**Qarabağlı K**. Dağlar küləyi // Savalan. - 2019. - 26-28 fevral. - № 8. - S. 3.

**Qəmli G**. Dağlar ; Dünya ; Xan Araz və b. : şeirlər // Mədəni Maarif. - 2011. - № 1. - S. 76.

**Məhərrəmov V.** Ulu dağlar, az qalır, qayıdacağıq // Azərbaycan. - 2009. - 1 aprel. - S. 5.

**Məmmədli E**. Dağlara qar düşüb ; Ölürük payız-payız ; Təbriz və b. : şeirlər // Ədəbiyyat qəzeti. - 2022. - 19 noyabr. - № 44/45. - S. 4.

**Mürşüdoğlu A.** Dağlar ; Mən alım ; Getmə, gülüm ; Dünya, üzün qara olsun // Ulduz. - 2008. - № 4. - S. 58-59.

**Müslüm F**. Şamaxı təəssüratı silsiləsindən ; Cuxuryurdda ; Dağlar və b. şeirlər // Ulduz. - 2010. - N 5. - S. 57-61.

**Namazov Ə**. Dərdimi dağa söylədim ; Unutma dağlar ; Dağ həsrətim : şeir // Təhsil problemləri. - 2018. - 8-15 mart. - № 19/20. - S. 14.

**Nəsibli E.** Mən uzaq Sibirin ; Nə bilsin ; Ay dağlar, ay dağlar və s. : şeirlər // Ədəbiyyat qəzeti. - 2009. - 11 sentyabr. - S. 6.

**Nəsirbəyli F.** Azərbaycan ; Dağlar məni yaman çəkir özünə ; Ağlama, gözünün qarası gedər : şeirlər // Ədəbiyyat qəzeti. - 2019. - 16 fevral. - № 6. - S. 9.

**Novruz V**. Sizə güvəndiyim dağlar ; Bu payız gözümdə qızıl payızdı ; Bir arzu bir ümid yaşadar məni : şeirlər // Azərbaycan : jurnal. - 2021. - № 2. - S. 161-163.

**Novruzoğlu Z**. Sonbeşik ; Lövhə ; Dağlar və buludlar : şeirlər // Azərbaycan : jurnal. - 2019. - № 12. - S. 146-147.

**Novruzov T.** Dağların qədrini billən şair : Xankişi Bəxtiyarın "Dağların qədrini hardan biləsən..." kitabı haqqında // Təhsil problemləri. - 2011. - 08-15 sentyabr. - № 67/68. - S. 15.

**Oğuz Ə**. Hara gedirsiniz, dağlar? ; Qürbət də çəkilməz dərd deyil ; Erkən sevgi və b. : şeirlər // Ulduz. - 2021. - N 11(630). - S. 75-80.

Öz dəyərlərimizi qoruyaq : "Biz və bizim dağlar" abidəsi haqqında // Respublika. - 2009. - 7 iyun. - S. 6.

**Rəsuloğlu M**. Kəpəz dağdan Göygölə bax // İki sahil. - 2021. - 24 iyun. - № 110. - S. 14.

**Rəşid M**. Ağaclar Eyfel qülləsindən, dağlar Misir piramidalarından daha gözəldi : şeirlər // Ədəbiyyat qəzeti. - 2023. - 1 aprel. - № 12. - S. 27.

**Rüstəmova G**. Dağ-xizək turizminin beynəlxalq turizmdə yeri // Mədəniyyət.az. - 2016. - № 2. - S. 78-79.

**Şahdağlı T.** Səksən yaşıma ; Dağlar ; Dəmirçi ; Bir yay axşamı ; Kənd lövhələri : şeirlər // Ədəbiyyat qəzeti. - 2008. - 20 iyun. - S. 4.

**Şıxalıoğlu Q**. Yaza boylanan dağlar : hekayə // Azərbaycan : jurnal. - 2017. - № 3. - S. 158-167.

**Şuşanın** dağları // 525-ci qəzet. - 2021. - 31 iyul. - № 134. - S. 21.

**Şuşanın** dağları // Azərbaycan : qəzet. - 2021. - 31 iyul. - № 157. - S. 8.

**Talıboğlu Ə**. Dağlar məni çağırır ; Göz açdım ; Ömür yaşadım və b. şeirlər // Kaspi. - 2015. - 18 aprel. - № 68. - S. 19.

**Vahid M**. Ora - vətəndir - dağları buludlardan uca : esse // Ədəbiyyat qəzeti. - 2018. - 24 fevral. - № 7. - S. 9.

**Vəfadar K.** Dağları ; Qaratoyuq, and verirəm Allaha ; Dərdlərimin azadlıq meydanı və b. şeirlər // Ulduz. - 2011. - № 7. - S. 51-53.

**Vüqar Z**. Yazın baş daşıma ; Mənim o dağlarda xatirəm qalıb : şeirlər // Ədəbiyyat qəzeti. - 2023. - 7 yanvar. - № 1. - S. 19.

**Yaqub M**. Babadağda bir dəli dağ kəli qalıb : şeir // Ədəbiyyat qəzeti. - 2017. - 4 noyabr. - № 39. - S. 18.

**Yusifoğlu R**. Dağlara qar yağar, könül dağının heyf ki, üstünü qar örtə bilmir... : şeirlər // Ədəbiyyat qəzeti. - 2022. - 10 sentyabr. - № 35. - S. 30.

**Yusifoğlu S**. Dağlar ; Bizimdir ; İydələr çiçəkləyib və b. : şeirlər // Ədəbiyyat qəzeti. - 2021. - 7 avqust. - № 32. - S. 2-3.

**Zamanlı S**. Azmışdı dağlar ; Daşdan yaranıb ; İndi mən gəzirəm sizləri , dağlar ; Gəlmişəm : şeirlər // Ədəbiyyat qəzeti. - 2015. - 11 iyul. - № 44. - S. 37.

# Başı Qarlı, Uca Dağlar

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Nuray Əlizadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**